**Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi sədrinin müavini Yusifov Yusif Xasay oğlu MDB üzv-iştirakçı dövlətlərin statistika xidmətləri rəhbərləri Şurasının 49-cu iclasında iştirak etmişdir**




Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi sədrinin müavini Y.X.Yusifov 28-29 mart 2013-cü il tarixdə MDB üzv-iştirakçı dövlətlərin statistika xidmətləri rəhbərləri Şurasının Moskva şəhərində keçirilmiş 49-cu iclasında iştirak etmişdir.

Tədbirdə Azərbaycan, Ermənistan, Belarus, Ukrayna, Tacikistan və Qazaxıstan respublikalarının statistika xidmətləri rəhbərlərinin müavinləri, Rusiya, Moldova və Qırğızıstan respublikaları statistika xidmətlərinin rəhbərləri, MDB Dövlətlərarası Statistika Komitəsinin sədri və əməkdaşları, Rusiya Dövlət Federal Statistika Xidmətinin işçiləri və MDB İcraiyyə Komitəsinin nümayəndəsi olmaqla 25 nəfər iştirak etmişdir.

İclasda statistika xidmətləri rəhbərləri Şurasının sədri və həmsədrləri; MDB Dövlətlərarası Statistika Komitəsi sədrinin müavini; MDB regionunda valyutaların alıcılıq qabiliyyəti əsasında 2011-ci ilin məlumatları üzrə ÜDM-nin beynəlxalq müqayisə proqramının gedişatı; MDB üzv-iştirakçı dövlətlərdə 2020-ci il əhali siyahıyaalınmasının növbəti mərhələsinin əsas təşkilati və metodoloji istiqamətləri; BMT-nin Avropa İqtisadi Komissiyası və Rusiya Federasiyası Dövlət Federal Statistika Xidmətinin siyahıyaalınma ilə bağlı və miqrasiyaya aid statistik məlumatların işlənməsi sahəsində MDB üzv-iştirakçı ölkələrin potensialının artırılmasına yönəldilmiş birgə layihəsi; Dünya Bankının Şərqi Avropa və MDB üzv-iştirakçı ölkələri üzrə EKASTAT proqramı; MDB Dövlətlərarası Statistika Komitəsinin 2014-cü il üzrə işlər Proqramı; MDB üzv-iştirakçı dövlətlərin statistika xidmətləri rəhbərləri Şurasının növbəti iclası haqqında məsələlər müzakirə olunmuşdur.